# VERİLƏNLƏR BAZASINDA CƏDVƏLLƏR VƏ ONLAR ARASINDA ƏLAQƏLƏRİN QURULMASI

***Ağacanov C.H.***
*(BDU, Tətbiqi riyaziyyat və kibernetika fakültəsi)*
*camirze.agacanov.95@mail.ru*

***Xülasə**: Təqdim olunan işdə elektron imtahanlar və ekspertlər haqqında məlumatlar üçün yaradılmış verilənlər bazasında cədvəllərin və onlar arasında əlaqələrin qurulması göstərilmişdir. İmtahanların şəffaflığının təmin olunması üçün informasiya kommunikasiya texnologiyalarının nə qədər vacib olduğu qeyd olunmuşdur.*

***Açar sözlər**: verilənlər bazası, informasiya texnologiyaları, telekommunikasiya şəbəkələri.*

Hal-hazırda müxtəlif təşkilatların fəaliyyəti mövcud informasiyanın səmərəli istifadə edilməsi bacarığından asılıdır. İstənilən sahədə səmərəli həllərin tapılması böyük həcmdə informasiyanın emalını tələb edir. İnformasiya texnologiyalarının çox sürətlə inkişafı müxtəlif növ informasiyanın istifadəsi əsasında qurulmuş informasiyalaşdırılmış cəmiyyətin yaranmasına gətirdi. İnformasiyalaşdırılmış cəmiyyətin maddi və texniki əsasını kompüter texnikası və telekommunikasiya şəbəkələri əsasında yaradılmış müxtəlif informasiya sistemləri təşkil edir. Belə ki, informasiya texnologiyalarının inkişafı cəmiyyətin müxtəlif sahələrinin idarə olunmasını asanlaşdırır [1].

Hal-hazırda təhsildə olduğu kimi hər bir peşə sahəsində də işə qəbul olmaq üçün imtahanlardan keçmək tələb olunur. Dünyanın bir çox ölkələri informasiya texnologiyalarının imkanlarından istifadə edərək imtahanları elektronlaşdırırlar. Artıq Azərbaycanda da elektron imtahanlar keçirilir. Məsələn, Dövlət İmtahan Mərkəzi dövlət qulluğuna qəbul olmaq üçün imtahanların birinci mərhələsini elektron qaydada təşkil edir. Bundan əlavə olaraq imtahanların təşkilində iştirak edən imtahan ekspertləri haqqında məlumatlar da elektron qaydada olmalıdır. Bütün bunların idarə olunması üçün verilənlər bazası yaradılır.

Bu baxımdan, baxılan iş elektron imtahanlar və ekspertlər haqqında məlumatlar üçün yaradılmış verilənlər bazasında cədvəllərin və onlar arasında

əlaqələrin qurulmasına həsr olunub. İşdə qoyulan məsələdə verilənlər bazasının idarə edilməsi sistemi kimi SQL istifadə olunur [2]. İlk növbədə "Exam" adlı database yaradırıq. "Exam" bazası daxilində 35-ə yaxın cədvəl qurulub və bir-biri ilə əlaqələndirilib. Cədvəllərin əlaqələndirilməsi üçün "primary key" və "foreign key"-lərdən istifadə olunur. MSSQL-də operatorlar istifadə olunaraq, table, user, trigger, view kimi verilənlər bazası obyektləri yaradıla bilir. Cədvələ məlumat əlavə etmək, silmək və dəyişiklik etməklə yanaşı, məlumatı seçmək və məruzə etmək üçün SELECT ifadəsi ilə birgə işlədilən İNTO, FROM, WHERE, LİKE, GROUP BY, ORDER BY, HAVİNG və s. kimi ifadələr istifadə olunub.

İşdə qoyulan məsələnin həllində istifadə olunan əsas cədvəllərdən biri "tableExam" cədvəlidir. Bu cədvəldə namizədlər haqqında məlumatlar yazılıb. "tableExam" cədvəlində elə məlumatlar var ki, onlar digər cədvəllərdən götürülür. Məsələn, namizəd öz məlumatlarını online şəkildə dolduranda öz ixtisasını "tableİxtisas" cədvəlindən seçir və "tableExam" cədvəlinə əlavə edir. Bunun üçün SQL-də "JOİN" əmrindən istifadə olunur.

Beləliklə işdə alınan nəticələr müasir informasiya texnologiyalarindan istifadə etməklə müxtəlif sahələrdə imtahanların elektron qaydada keçirilməsi və şəffaflığın təmin edilməsi üçün istifadə oluna bilər.

**Ədəbiyyat**

1. Kərimov S.Q. İnformasiya sistemləri, Bakı, Elm, 2008, 676s.
2. John Viescas SQL querries, 2008, 95p.